Ticarət Nümayəndəsinin Aparatı
Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki Səfirliyi
Fevral, 2020

# BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNƏ QİDA MƏHSULLARININ İXRACI İLƏ ƏLAQƏDAR QAYDALARA DAİR İCMAL

## 1. GIRIŞ

Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki Səfirliyində Ticarət Nümayəndəsiin Aparatı tərəfindən hazırlanmış bu sənəd Azərbaycan qida məhsulları ixracatçılarının Birləşmiş Ərəb Əmirlikəri bazarına məhsullarının ixracı üçün BƏƏ-nin idxal qaydaları, sənədləşmə və etiketləmə ilə əlaqədar tələbləri əhatə edir. Bir çox hallarda Azərbaycandan qida məhsullarının Dubaya ixracı ilə əlaqədar qaydalara əməl olunmaması həm ixracatçının, həm də idxalçının müəyən vaxt və resurs itkisinə səbəb olur ki, bu da nəticədə ixracda müəyyən problemlər yaradır. Bəzi hallarda isə həmin ziddiyətlər göndərlmiş qida məhsullarının tam itirilməsinə gətirib çıxarır.

## 2. QİDA MƏHSULLARININ İDXALI VƏ TƏKRAR İXRACI SİSTEMİ (FIRS)

Qida məhsulları Birləşmiş Ərəb Əmirliklərinə idxal olunmazdan əvvəl qida məhsulu və etiketi Dubay Bələdiyyəsinin Qida məhsullarının İdxalı və Təkrar İxracı sistemində (FİRS) qeydiyyatdan keçməlidir.

Qida məhsulu və etiketləmənin qeydiyyatı BƏƏ-yə idxalçı şirkət tərəfindən həyata keçirilir.

Məhsulların qeydiyyatının müəyyən vaxt tələb edə biləcəyini və qeydiyyat zamanı hər hansı problemin çıxa biləcəyini nəzərə alaraq, qeydiyyat prosedurunun məhsullar Dubaya çatmazdan əvvəl həyata keçirilməsi məsləhət görülür.

*Eyni məhsulun müxtəlif qablaşdırılması müxtəlif məhsullar sayılır və ayrı-ayrılıqda FIRS sistemində qeydiyyatdan keçirilməlidir (Məsələn: eyni məhsulun 100 gr və 200 gr qablaşdırılması ayrı ayrılıqda qeydiyyatdan keçirilməlidir)*

## 3. QİDA ETİKETLƏNMƏSİ (FOOD LABELING)

Məhsulun etiketlənməsi zamanı aşağıdakılar MƏCBURİDİR:

1. Brendin adı
2. Məhsulun adı: qida məhsulunun qısa təsviri

3. Məhsulun inqrediyenti: Çəki və ya həcmə görə azalan sırayla düzülməlidir
4. Bütün məhsulların istehsal və son istifadə tarixi – istehsal və son istifadə tarixi tələb olunmayan məhsullar istisna olmaqla (məsələn: meyvə-tərəvəz)

   Qəbul edilən format: ***gün/ay/il***, rəf ömrü 3 aydan çox olan məhsullar üçün ***ay/il***

***Qeyd:*** *Qida məhsullarının son istifadə müddəti ilə bağlı daha ətraflı məlumatı* ***Dubay Bələdiyyəsinin Qida məhsulları İdxalına Tələblərə dair Nəzarət Bələdçisinə*** *baxmaq olar* ***(Dubai Municipality Food Control Import Requirements Guide).***

**Istehlak müddəti ilə əlaqədar aşağıdakı fərqlər qoyulur:**

- Məcburi rəf ömrü olan qida məhsulları,
- Könüllü rəf ömrü olan qida məhsulları,
- Istifadə müddəti tələbindən azad olunanlar.

5. İstehsalçı, qablaşdıran, distributor və idxalçı şirkətin adı
6. Məhsulun xalis çəkisi və ya həcmi
7. Malın mənşə ölkəsi dəqiq, spesifik və aydın göstərilməlidir (Məsələn “Avropa İttifaqı” mənşə ölkəsi kimi dəqiq olmadığından qəbul edilmir). Azərbaycandan ixrac olunan məhsulun mənşə ölkəsi “Azərbaycan” olaraq qeyd edilməsi məqbul hesab edilir.
8. Məhsulun barkodu
9. Məhsul partiyasının nömrəsi (lot nömrəsi)
10. Etiket ərəb dilində olmalıdır.

Təsdiq edilmiş stikerlər ərəb dilindən tərcümə üçün istifadə edilə bilər. Stiker və ya etiket üzərində ərəb dili ilə bağlı minimum tələblər aşağıdakı kimidir:

- Məhsulun adı,
- İnqrediyenti,
- Mənşə ölkəsi,
- Saxlanma şəraiti (tətbiq olunduqda),
- Istifadə təlimatı (tətbiq olunduqda),
- Kimyəvi tərkibi (nutritional info) barədə məlumatlar (tətbiq olunduqda)

*Qeyd: Asanlıqla cırıla və sökülə bilməyən stikerlər olmalıdır.*

11. Saxlanma şəraiti (əgər məhsulun istifadə müddəti həmin şəraitdən asılı olarsa)
12. Yüksək həssaslığa səbəb ola biləcək inqrediyentlərin xüsusi qeyd olunması
13. Məhsulun istifadə qaydaları (tələb olunduqda)

14. Kimyəvi tərkibi (nutritional info) barədə məlumat əks olunması azaddır (məhsullar xüsusilə uşaq, xəstələr və digər xüsusi istifadə üçün olduqda tələb olunur)

## 4. MƏHSULUN İNQREDİYENTLƏRİ VƏ LABORATORİYA ANALİZİ

- Məhsulun bütün inqrediyentləri, rəngləndirici və dadlandırıcı etiketin üzərində qeyd edilməlidir.
- Məlumatlar düzgün və dəqiq yazılmalıdır (məsələn: sirkə, yağ, rəngləndirici, dadlandırıcı kimi ümumi məlumatlar qəbul edilmir. "Düyü sirkəsi", "kanola yağı", "E-127 və ya eritrosin", "E1505 və ya trietil sitrat" kimi məlumatlar qəbul edilir).
- Dubayda yeni qeydiyyatdan keçən və idxal edilən məhsul ilk növbədə Dubay bələdiyyəsinin laboratoriyasından keçməlidir. Etiketdə hər hansı inqrediyent və qatqı düzgün və aydın göstərilmədikdə və bu inqrediyent və qatqı Dubay Bələdiyyəsi tərəfindən müəyyən edildikdə həmin məhsulların ölkəyə idxalına icazə verilməyəcək.

### 4.1 QADAĞAN EDİLMİŞ QATQILAR VƏ İNQREDİYENTLƏR

**Aşağıda qeyd olunan inqrediyentlər və qatqılar BƏƏ-də qadağan edilmişdir.**

**4.1.1 Qida məhsulları:**

- E104 Kinolin sarı (Sarı 1 nömrə) *(eng.- Quinoline yellow)*
- E105 Boyalı sarı, sürətli sarı A B *(eng.- fast yellow)*
- E107 Boyalı sarı 2G (Qida sarısı 5) *(eng.- yellow)*
- E 123 Boyalı tünd qırmızı (C.1. 16185 FD və C qırmızı 2) *(eng.-Amaranth)*
- E124 Boyalı qırmızı ponceau 4 R (Qırmızı 2) (Cl.16255) *(eng.-Ponceau)*
- E127 Qırmızı Eritrosin boyası (FD və C qırmızı 3)(C.I 45430) *(eng.- Erythrosine)*
- E131 Mavi patentli boya V (C.I.42051) *(eng.-Patent Blue)*
- E142 Yaşıl boya S (Yaşıl Brilyant Asid, Yaşıl Qida S, Lissamin Yaşıl, C.44090) *(eng.-Green S)*

- E924 Potassium Bromat (Çörək məhsulları) *( eng.- Potassium Bromate)*
- E952 Siklamat *(eng.-Cyclamate)*
- E1510 Etanol (spirt)

*Qeyd: Tərkibinə spirt əlavə edilmiş məhsula icazə verilmir. Ancaq, məhsulun tərkibində təbii olaraq spirt yaranırsa (məsələn şirələr), BƏƏ-nin standartlarına uyğun olaraq müəyyən məhdudiyyət tətbiq olunur.*

**4.1.2 İnqrediyent:**

- Xaş-xaş toxumu
- Qat yarpağı
- Betel yarpağı və qozu
- Niswar (tütün ətəyi)
- Gutkha (əzilmiş areca qozu, tütün, katexu, parafin mumu, şirəli əhəng və şirin ləzzətlər)

*Əgər hər hansı məhsul donuz əti və ya donuz əti məhsullarında hazırlanmışa bu barədə etiketdə də aydın şəkildə qeyd edilməlidir (yalnız inqrediyent bölməsində yox)*

5. TƏLƏB OLUNAN SƏNƏDLƏR

Dubay Bələdiyyəsinin Qida Nəzarəti idarəsi tərəfindən limanda aşağıdakı sənədlər tələb olunur.

1. Giriş və ya t fakturası (Bill of entry or airway bill)
2. Yalnız konteynerlər olduqda çatdırılma sifarişi (Delivery order)
3. Məhsulun mənşə ölkəsində səlahiyyətli qurum tərəfindən təsdiq edilmiş sağlamlıq sertifikatının əsli (sənədin surəti qəbul edilmir və malın limanda saxlanılmasına səbəb olacaqdır)
4. Qablaşdırma siyahısı (consiment packing list)

5. İslam Təşkilatı tərəfindən buraxılan Birləşmiş Ərəb Əmirlikləri tərəfindən təsdiq edilmiş Halal Sertifikatının əsli (ət, quş əti və quş əti məhsulları) (Bu sertifikatın əslini təqdim edilməməsi malların saxlanılmasına və ya təkrar ixracına səbəb olacaqdır) ***(Azərbaycan da daxil olmaqla müsəlman ölkələrinə tətbiq edilmir)***
6. Ət məhsullarının BƏƏ-yə ixracı üçün ət kəsim mərkəzləri BƏƏ-nin Ətraf Mühit və İqlim Dəyişikliyi Nazirliyində qeydiyyatdan keçirilməlidir. Bunun üçün qeydiyyat prosedurları zamanı əlavə olaraq HACCP və ISO22000 sertifikatları tələb olunur.
7. Beynəlxalq epidimeya hallarında və ya hər hansı yerli qərarlarla əlavə sertifikatlar (qeyri-GMO, quş qripinə yoluxmamaq sertifikatı, dioksinə yoluxmamaq sertifikatı)

## 6. ÖLKƏYƏ MALIN GİRİŞİNƏ İCAZƏNİN VERİLMƏSİNDƏN İMTİNA SƏBƏBLƏRİ

- Qadağan olunmuş inqrediyent (məs xaş-xaş) və spirtli içki
- Etiketdə məlumatların aydın oxunmaması
- Sağlamlıq sertifikatının əslinin olmaması
- Asan qoparıla bilən etiket
- FİRS sistemində təkrarlanmış barkodlar
- Qida əlavəsi, dərman, vitaminlər bu qanunvericiliklə tənzimlənmmir, ancaq digər səlahiyyətli qurumlar tərəfindən təsdiq edilməsi tələb olunur.
- Məhsulun bütün inqrediyenti bəyan edilmədikdə,
- Məhsulun inqrediyenti xarici dildə qeyd edildikdə
- "Forma qanunu (shape law)" uyğun olmadıqda: Dini əlamətlər və uyğun olmayan şəkillər (bunlara spirtli ickilərin qeyd edilməsi də daxildir, məsələn: bir stəkan pivə və ya şərabla müşayiət ediləcək qida məhsulunun marketinqi)

## 7. ƏTRAFLI MƏLUMATLAR

Qaydalar, prosedurlar və ziddiyyət halında görülən tədbirlər haqqında daha ətraflı məlumatı Dubay Bələdiyyəsinin saytından əldə etmək olar.

www.dm.gov.ae – Biznes və Ərzaq Təhlükəsizliyi Departamenti

Əlavə sual yaranacağı təqdirdə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki Səfirliyində ticarət nümayəndəsi Aparatına müraciət edilə bilər.

Azərbaycan Respublikasının
Birləşmiş Ərəb Əmirliklərindəki
Səfirliyində Ticarət nümayəndəsi Aparatı
Ünvan: Umm Suqeim 3, The Mall, Jumeirah Beach Hotel ilə üzbəüz
Dubay, Birləşmiş Ərəb Əmirlikləri
Tel: +971 4 223 08 19
Mob: +971569060898
Email: elnur.shukurov@economy.gov.az